ədalət.-2019.-16 may.-S.5.



# Bakıdan Trabzona könül yolu

## Təəssürat anlamlı yol qeydləri

*Əbülfət MƏDƏTOĞLU*

**(Əvvəli ötən saylarımızda)**

Əbülfət MƏDƏTOĞLU

... Telefonuma zəng gəlir. Əhməd qardaşımdı:

- Abi, sabah saat 9-da doktor səni qəbul edəcək. İndi danışdım. Bilirsən də səhər yeməyi ertələnir...

Başa düşürəm nə deyir abim. Yəni ac-qarnına getmək lazımdı. Elə başa düşdüyümə görə də gülümsəyirəm. Doğrudu, bu təbəssümümü Əhməd qardaşım görmür. Əgər görsəydi, niyə və nəyə gülümsədiyimi o da duyacaqdı. Çünki onun çox həssas adam olduğunu siz də bilirsiniz. Bilməyənlərə isə xatırladım ki, sahil boyu gəzərkən gözlərimə, yaddaşıma, ruhuma köçürdüyüm, necə deyərlər, "yedirtdiyim" qida hələ uzum zaman mənə bəs edəcəkdi. Ona görə də səhər-səhər həkim qəbuluna acqarnına getməyin elə bir qorxusu yoxdur...

Mən bu fikirləri ağlımdan keçirdiyim o anın içərisində Əhməd qardaşım telefonda sözünü davam etdirdi:

- Bir saatdan sonra gələcəm, birlikdə axşam yeməyinə çıxarıq. İstəsən camiyə də qalxarıq. Yəni qalan məsələləri orda müzakirə edərik. Oldumu?

Muxtarımla razılaşıram. Hələ bir saat dənizlə söhbətləşmək fürsətim var...

Axşam yeməyindən sonra camiyə qalxırıq. Həmin o tanış insanlarla, oradakı dostlarla çay içə-içə terrordan tutmuş dinə qədər, siyasətdən tutmuş oruca qədər, Suriya qaçqınlarından Qarabağ probleminə kimi, Azərbaycan-Türkiyə qardaşlığından, Rəcəb Tayyib Ərdoğanla Azərbaycan prezidentinin bir-birinə güvənindən... Yəni insanı maraqlandıra biləcək hər mövzuda söhbətlər edirik. Artıq adamlar yavaş-yavaş seyrəlməyə başlayırlar. Biz də qalxırıq. Həyati bəylə, Rəcəb abiylə, İbrahim hocamla sağollaşıram. Əhməd qardaşım məni Sahil Testlərinə gətirir. Bu insan burda da məni otelin restoranına çaya dəvət edir. Təəccüblə üzünə baxıram. Əhməd bəy:

- Abi, çay olmasın, dondurma olsun. Adama birini yeyərik, həm də söhbətləşərik.

Onun fikrinin qəti olduğunu görüb razılaşıram. Necə deyərlər, Trabzonda bu ilin dondurma "tilsimini" də sındırırıq. Hiss olunur ki, restoranda da artıq yır-yığışa başlayırlar. Bu da o deməkdir ki, "sabaha qədər"- deyib ayrılmalıyıq.

Səhər lap erkən dəniz sahili ilə gəzə-gəzə muxtarlığa gəlib çıxdım. Əhməd bəy telefonla məni axtarıb hazır olub-olmadığımı soruşanda bildirdim ki, artıq muxtarlığa gəlmişəm. O da bir az məni qınadı və dedi:

- Bu qədər yolu niyə piyada gəlirdin? Gözləyə bilməzdin?

Onun bu diqqəti məni sevindirsə də, amma səhər gəzintisinin faydasını ona xatırladanda "tamam, qardaşım, razılaşdım səninlə" - dedi. Və birlikdə xəstəxanaya qalxdıq. Əvvəlcədən analizləri verdiyimizdən indi həkimin özünün göstərişiylə kardioloji müayinənin zəruri prosedurlarını keçməyə başlayırıq. Exo-kardioqramma çəkilişi zamanı həkim müayinə otağına gəlib sükan arxasına özü keçir. Mən nə qədər cəhd etsəm də, çevrilib onun üzünə baxa bilmirəm. Həkim əlindəki aparatın dəstəyini ürək nahiyəmdə elə gəzdirir ki, sinəmdəki döyüntünü açıq-aşkar eşidirəm. Hətta hərdən mənə elə gəlir ki, qanı damarlara qovan ürəyin səsiylə ləpələrin sahildən geri çəkilməsinin səsi üst-üstə düşür. Bu bənzətmə bəlkə də uğursuzdu, heç yerinə düşmür, amma ürəyin səsini bu qədər yaxından eşitmək adamda müəyyən hisslər oyadır...

Doktorum professor Mustafa bəylə üz-üzə oturmuşuq. Məndən rahatsız olan və hər zaman yanımda dayanan Əhməd qardaşım da doktorun izniylə söhbətdə iştirak edir. Mustafa bəyin suallarının cavablarımı Əhməd bəy də gücləndirib. Çünki o, mənim ürəyimin durumundan az qala özüm qədər xəbərdardı. Burda da vurğulayım ki, Mustafa bəy mənim adını unutduğum xüsusi aparatdakı "qaçışını" müsbət saylır. Zarafatla deyir ki, şairin qəlbi sevgisinin ardınca qaçışına yardımçı olub. Onun bu zarafatının qatları mənə məlumdur. Və bu professorun hər görüşümüzdə mənimlə etdiyi söhbətlər, oxuduğu yazı-pozu məni ona tanıdıb. Və mən də şeirlərimin birində yazmışdım ki, Mustafa doktor ürəyimin bütün ağrı-acısını görür, duyur və müalicəsini yazır. Amma Allahdan və məndən başqa ürəyimdəki Səni kimsə görmür.

Bəli, həkimin məsləhətləri, yazdığı dərmanlar və bir də müəyyən söhbətlərimiz xəstəxanayla bağlı olan anlarımıza yekun vurur. İndi sabahkı günü, yəni üzü vətənə doğru qayıdacağım avtobusun biletiylə ilgilənmək vaxtıdır. Mən otaqdan çıxanda Əhməd bəyin telefonla kimisə aradığını hiss etdim. Soruşmağa macal tamamış onun "Starok" firmasının nümayəndəsi Əli bəylə danışdığını anladım. Dostum mənim üçün bilet sifariş verirdi. O, danışıb qurtarandan sonra:

- Abi, bilet məsələsi də tamam. İndi səhərə qədər vaxtımız var, gedək bir az gəzib-dolaşaq.

Birlikdə Trabzonun alış-veriş ünvanlarından biri olan bizim "Sədərək"i xatırladan ünvana gedirik. Nəvələrim üçün kiçik hədiyyələr seçirik. Və sonra yadımıza düşür ki, günortadan keçsə də yemək yeməmişik. Bundan narahat olan Əhməd qardaşım məni yaxınlıqdakı kafeyə dəvət edir. Burada müştərilərə çox gözəl və müxtəlif çeşidli yeməklər təklif olunur.

Biz nahar edib camiyə gəlirik. Namaz vaxtıdı. Əhməd bəy Allah qarşısındakı borcunu vermək üçün namaz otağına keçir. Mən isə caminin həyətində qoyulmuş kürsülərdən birində oturub şəhəri seyr edirəm.



**Trabzonda**
**Universitet məhəlləsində**
**yenicə**
**kərpic-kərpic**
**ucalmış**
**möhtəşəm bir cami -**
**minarəli, minbərli**
**adı**
**Kocatəpə**
**kimi bəlli...**
**bu müqəddəs məkana**
**Allah adamları**
**hamı...**
**Həyati bəy,**
**Əhməd bəy,**
**İbrahim hoca,**
**Rəcəb abi**
**və özgə**
**məhəllə sakinləri**
**alt qatda**
**namaz otağında**
**pıçıltılı səsli,**
**sevgi həvəsli**
**dualar...**
**insanların**
**könlündən qanadlanıb**
**zaman-zaman**
**yüksəlir Allaha...**
**mənə belə gəlir ki,**
**məhz elə**
**bu sonsuz**
**İlahi sevgisidir**
**trabzonluları hər gün**
**ümidlə aparan**
**sabaha!..**



Adətən səfər sonlarında, yola çıxmaq məqamında özüm də hiss etmədən darıxmağa, narahatlıq hissləri keçirməyə adət etmişəm. Bunu artıq Əhməd bəy də hiss edir. Ona görə də tez-tez mənə təsəlliverici şəkildə deyir:

- Abi, narahat olma! Sabah saat 7-də inşallah cocukların yanına dönəcəksən. Burda bizimlə keçirdiyin vaxtdan və bizdən bir narazılığın, incikliyin varsa söylə. Biz səni çox sevirik. Sən artıq bir qaradənizlisən!

Dostumun bu sevgisi və verdiyi bu dəyər həqiqətən mənim üçün çox önəmli oldu. Bu İnsan Mələyin ürəyinə təkrar heyran qaldım. Özümdən asılı olmadan ayağa qalxıb onu qucaqladı. Demək, mənim hələ bir az da yaşamaq şansım var. Bu şansı da mənə Mələk İnsan, Sən və bir də dostlarım, doğmalarım verirsiniz...

Hər kəslə sağollaşıb vidalaşıram. Növbəti görüşümüzün nə vaxt olacağını bir Allah bilir. Ona görə də hər kəsi Allaha əmanət edirəm. Elə Trabzonu da! Əhməd bəy məni otelə gətirir. Bir vacib işi çıxdığından getmək zorundadı. İşinin mahiyyətini bilirəm. O, bu axşam Universitet məhəlləsinin imkansız, şəhid, xəstə, yaşlı və bir də işsiz insanlarına oruc süfrələri üçün Ramazan hədiyyələri paylayacaq. İstəyir ki, hər kəsin Ramazan süfrəsində Allah nemətlərindən olsun.

... Dənizlə vidalaşmaq üçün sahil boyu gəzirəm. Yandırılmış lampaların işıqları dənizdə sayrışır. Ləpələr elə bil bu işıqlarla əylənir. Baxıra, baxıram və içimdən gəlib keçəni özüm-özümə pıçıldayıram:

**Mən**
**dalğaların**
**qayaları**
**öpdüyü yerdə**
**çox dərin bir**
**fikirdə**
**özümü unutdum**
**və üzümü**
**dənizə tutdum...**
**dilək dilədim**
**balıqlara,**
**balıqçılara**
**bir də**
**sahildə**
**bu dənizi**
**seyr edənlərə...**
**bir ovuc**
**su çilədim -**
**Qara dənizin**
**göz yaşlarından**
**duru suyunu...**
**axıb gedən**
**ulduzların dalınca**
**sonra**
**xatırladım**
**batmaqda olan**
**Günəş də**
**suya çəkmişdi**
**ürəyimi**
**sahildə -**
**aydınlıq üçün!..**

**Bəli, Əhməd qardaşım Rəcəb abiylə gəlirlər. Otelin restoranında oturub çay sifariş veririk. Musiqi dinləyə-dinləyə söhbət edirik. Bayırda yağış başlayır. Dupduru yağış. Bu, gedənlərin və qalanların yoluna səpilən sudu...**

**... Bu da Trabzonun Terminalı... Bu da "Sarok" firmasının "İstanbul-Bakı" avtobusu. Qardaşımla qucaqlaşıb ayrılırıq. Bu, cismlərin ayrılığıdı... ruhların, ürəklərin yox! Qarşıda uzun bir yolçuluq gözləyir məni... bir də doğmalarım! Təbii ki, bir də SƏN!**

**P.S.** **Xəstəxana problemlərimin çözümündə xüsusi əməyi olan Hüseyn qardaşıma sonsuz təşəkkürlərimi bildirirəm.**